*Azərbaycan Respublikasının*
*Nazirlər Kabinetinin 12 yanvar*
*2015-ci il tarixli, 4 №-li Qərarı ilə*
*təsdiq edilmişdir.*

***“Tikintilərin dövlət reyestrinə daxil edilən məlumatların tərkibi, həmin məlumatların təqdim edilməsi və reyestrin aparılması Qaydaları”***

**QAYDALARIN 4.4. bəndi**
***Reyestrin yaranmasından əvvəl.***

## *01.01.2013-cü il tarixindən əvvəl tikintiyə icazə verilmiş sərəncamlara əsasən təqdim olunan sənədlər və məlumatlar (Qaydaların 3.1.1. bəndi).*

1. Obyektin tikintisinə icazənin surəti.
2. Torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin surəti.
3. Tikinti obyektinin yerləşdiyi ərazinin müfəssəl planından çıxarış və ya təsdiq edilmiş şəhərsalma əsaslandırılması.
4. Tikinti layihəsinin memarlıq - planlaşdırma bölməsi.
5. Tikinti obyektinin əsas texniki göstəriciləri ( *layihə üzrə*).
6. Torpaq sahəsinin döngə nöqtələrinin koordinatları.
7. Ərazinin situasiya planı.
8. Tikinti obyektinin adı, ünvanı və təyinatı.

**Qeyd:** ***Tikintilərin Dövlət reyestri Qaydalarının 4.4. bəndinə əsasən Reyestrin yaranmasından əvvəl tikintisinə başlanmış, lakin istismarına icazə verilməmiş tikinti obyektlərinə dair bu Qaydaların 3.1.1. yarımbəndində nəzərdə tutulan sənəd və məlumatlar yerli icra hakimiyyəti orqanı və ya sifarişçi tərəfindən reyestrə təqdim edilir və tikinti obyektinə kod verilir.***

***Yuxarıda qeyd olunan sənədlər tikintinin vəziyyətindən asılı olaraq tikinti obyektinə kod nömrəsinin verilməsi və məlumatların Tikintilərin Dövlət reyestrinin məlumat bazasına daxil edilməsi barədə yerli icra hakimiyyəti orqanı (sifarişçi) tərəfindən Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin adına ünvanlanmış müraciət məktubuna əlavə edilməlidir.***